*UOT 376*

***Adilə Ağaməmməd qızı Mürsəlova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/0000-0002-6190-4201*
https://doi.org/10.69682/azrt.2024.91(2).293-296

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN NİTQ İNKİŞAFI XÜSUSİ TƏHSİL MƏKTƏBLƏRİNİN ƏSAS VƏZİFƏLƏRİNDƏN BİRİ KİMİ

***Аделя Агамамед гызы Мурсалова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# РЕЧЕВОЕ РАЗВИТИЕ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ КАК ОДНА ИЗ ГЛАВНЫХ ЗАДАЧ СПЕЦИАЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***Adela Agamamed Mursalova***
*lecturer at Azerbaijan State Pedagogikal University*

# SPEECH DEVELOPMENT OF CHILDREN WITH LIMITED HEALTH OPPORTUNITIES AS ONE OF THE MAIN TASKS OF SPECIAL EDUCATIONAL SCHOOLS

**Xülasə.** Korreksiya pedaqogikasında və psixologiyasında əmək təlimi sistemi uzun müddətdir ki, kifayət qədər inkişaf edir. Bu problemi araşdıran tədqiqatçıların əksəriyyəti əmək təliminin SİM uşaqların inkişafında əhəmiyyətli rol oynadığını qeyd etmişlər. SİMU şəxsiyyətinin motivasiya ehtiyacı, emosional-iradi, fiziki, idrak sahələrinin inkişafına birbaşa təsir göstərən əmək təlimi insanın cəmiyyətə sosial uyğunlaşmasına kömək edən ən mühüm amildir.
***Açar sözlər:*** *sağlamlıq imkanları məhdud uşaqlar, müstəqillik hissi, təfəkkür, ünsiyyət prosesi, əmək təlimi, lüğət ehtiyatı*

**Резюме.** Система трудового обучения в коррекционной педагогике и психологии достаточно развита. Большинство исследователей, исследующих эту проблему, отмечали, что трудовое обучение играет важную роль в развитии детей с особыми потребностями. Трудовое обучение, оказывающее непосредственное влияние на развитие мотивационной, эмоционально-волевой, физической и познавательной сферы детей с ограниченными возможностями здоровья является важнейшим фактором, помогающим человеку социально адаптироваться к обществу.
***Ключевые слова:*** *дети с ограниченными возможностями здоровья, чувство самостоятельности, мышление, процесс общения, трудовое обучение, словарный запас*

**Summary.** The system of labor training in correctional pedagogy and psychology has been developing for a long time. Most researchers studying this problem have noted that labor training plays an important role in the development of children with special needs. Labor training, which has a direct impact on the development of the motivational, emotional-volitional, physical and cognitive spheres of children with disabilities, is the most important factor in helping a person socially adapt to society.
***Key words:*** *children with disabilities, sense of independence, thinking, communication process, labor training, vocabulary.*

**Aktuallıq:** Korreksiya pedaqogikasında və psixologiyasında əmək təlimi sistemi uzun müddətdir ki, kifayət qədər inkişaf edir. Bu problemi araşdıran tədqiqatçıların əksəriyyəti əmək təliminin SİM uşaqların inkişafında əhəmiyyətli rol oynadığını qeyd etmişlər. SİMU şəx-

siyyətinin motivasiya ehtiyacı, emosional-iradi, fiziki, idrak sahələrinin inkişafına birbaşa təsir göstərən əmək təlimi insanın cəmiyyətə sosial uyğunlaşmasına kömək edən ən mühüm amildir.

SİMU təlim-tərbiyəsi xüsusi təşkil edilmiş tədris müəssisələrində həyata keçirilir.

Xüsusi məktəbdə SİM şagirdlər üçün əmək təliminin vəzifələri bunlardır:

- işə motivasiyalı münasibətin tərbiyəsi və müvafiq şəxsiyyət xüsusiyyətlərinin: kollektivdə işləmək bacarığı, müstəqillik hissi, özünü təsdiq etmə, məsuliyyətin inkişaf etdirilməsi;

-əqli, fiziki inkişaf çatışmazlıqlarının əmək təlimi vasitəsilə korreksiya və kompensasiyası;

- məktəb məzunlarına istehsalatda işləməyə imkan verən məhsuldar əmək üçün peşə hazırlığı.

SİM uşaqların bütün kateqoriyaları üçün əsas olan bu vəzifələr əqli və psixofiziki xüsusiyyətlərinə və imkanlarına görə onların ümumi təhsillə, xüsusilə peşə təlimi və məşğulluq məsələlərinin həllində xüsusi əhəmiyyət kəsb edir.

SİM şagirdlərin nitqinin inkişafı əmək təlimi dərsləri zamanı aparılan korreksiya işlərinin mühüm tərkib hissəsidir. {1}Nitqin əsas funksiyalarından biri ünsiyyətdir. Ünsiyyət prosesində müxtəlif fəaliyyət sahələrində, xüsusən də məhsuldar işdə toplanmış təcrübə mənimsənilir. Nitq təfəkkürün əsas vasitəsi və formasına çevrilir. Eyni zamanda işin təşkili səviyyəsini təyin edən praktiki və nitq fəaliyyəti arasındakı ardıcıllıq şagirdin müstəqillik səviyyəsinin inkişafı ilə yanaşı, həm də təfəkkürün, nitqin və təcrübənin inkişafında vəhdət kimi özünü göstərir.

Əmək dərslərində nitq inkişafı işlərinə aşağıdakılar daxildir: lüğət işi, şagird sorğuları, söhbətlər, əyani vəsaitlərin şifahi təhlili, şagirdlərin nitq və əmək fəaliyyəti arasında əlaqənin qurulması.

Beləliklə, xüsusi məktəblərdə nitqin inkişafı bütün tədris prosesində, xüsusilə də korreksiya-inkişafetdirici işlərinin mərkəzi vəzifələrindən biridir. SİMU-da nitqin tələffüz, lüğət və qrammatik tərəflərinin xarakterik pozulmaları ilə yanaşı, kommunikativ vərdiş və bacarıqların inkişafsızlığı kimi çatışmazlıqlar müşahidə olunur. Onlar ünsiyyət prosesində söz seçməkdə, dialoq üçün cümlələr qurmaqda çətinlik çəkirlər və ifadəli nitq vasitələrindən necə istifadə etməyi bilmirlər. Buna görə də SİMU-da şifahi nitqin ünsiyyət vasitəsi kimi formalaşması korreksiya məktəbinin aparıcı vəzifəsi kimi çıxış edir. SİM uşaqlarda nitq qüsurlarının vaxtında, məqsədyönlü şəkildə aradan qaldırılması onların əqli fəaliyyətinin inkişafına, tədris materialının mənimsənilməsinə kömək edir, onların cəmiyyətə daha tez adaptasiyasına, eləcə də sosiallaşmasına kömək edir.

Psixoloji-pedaqoji tədqiqatlar göstərir ki, düzgün təşkil olunmuş əmək təlimi SİM şagirdlərdə nitq fəaliyyətinin inkişafındakı çatışmazlıqların aradan qaldırılmasının səmərəli vasitəsidir. Belə ki, əmək təlimi dərslərində SİM uşaqlardakı nitq pozulmalarının vaxtında, məqsədəyönlü şəkildə aradan qaldırılması onların idrak fəaliyyətinin inkişafına, dünyagörüşünün zənginləşməsinə, bilik, bacarıq və vərdişlərin mənimsənilməsinə kömək edir.

Əmək uşaqlarda müsbət şəxsiyyət xüsusiyyətlərinin inkişafına böyük töhfə verir. Əmək təlimi və fəaliyyəti zamanı əldə edilmiş bilik və bacarıqlar məktəbdənkənar praktik fəaliyyətlərdə tətbiqinə kömək edir.

Xüsusi psixologiya və pedaqogika göstərir ki, SİMU ətraf mühit haqqında informasiyaları qəbul etmək, qavramaq, saxlamaq və emal etmək qabiliyyətinin xeyli aşağı olması nitqin inkişafsızlığı və ya nitqin ləng inkişafı ilə bağlıdır. Nitqin inkişaf pozulması uşaq fəaliyyətinin azalması, maraq dairəsinin daralması, emosional-iradi sferanın özünəməxsus təzahürləri ilə özünü göstərir.

Əmək təlimi dərslərində SİM 13-15 yaşlı uşaqlarda və xüsusilə 16-18 yaşlı yeniyetmələrdə bədii sənətkarlığa, texniki yaradıcılığa maraq və meylləri inkişaf etdirilir. SİM oğlanlarda və qızlarda, xüsusilə də yeniyetmələrdə bədii –texniki sənətkarlığa nəqqaşlıq, taxta yandırma və ya dəmir üstündə döymə, rəsm, toxuculuq, xalçaçılıq, tikiş, modelləşdirmə ilə məşğul olmaq üçün sabit maraqlar və meyllər inkişaf edir.

Əmək təlimi dərslərində texnoloji bilik və əmək bacarıqlarını gündəlik praktikada qarşıya çıxan problemlərin həllində tətbiq etmək bacarığı bir sıra digər akademik fənlər (ana dili, riyaziyyat, rəsm və s.) üzrə bilik və bacarıqlardan istifadə etməyi tələb edir. Bundan əlavə əmək təlimi dərslərində informasiya-kommunikasiya texnologiyalarından istifadə də tədris prosesinin səmərəliliyinin yüksəldilməsini təmin edir.

Xüsusi təhsil müəssisələrində əmək təlimi dərsləri məhz, SİM məktəblilərin yaradıcılıq qabiliyyətlərinin və şifahi nitqinin inkişaf etdirilmə vasitəsi kimi mühüm əhəmiyyət kəsb edir. Burada mühüm rolu şagirdlərdə müəyyən şəxsi keyfiyyətlərin: müstəqillik, fəallıq, zəhmətkeşlik, öhdəçilik, məsuliyyət hissi və qənaətcillik və s. inkişaf etdirən *layihələndirmə metodundan* istifadə oynayır. Xüsusi məktəbin əmək təlimi müəllimi şagirdlərlə görüləcək əmək fəaliyyətini, hər hansı bir məhsulun hazırlanma mərhələ və gedişini layihələndirdiyi zaman, həm də şagirdlərdə sözlü nitqin inkişafı məsələlərini də nəzərə almalıdır.

SİMU-rın əmək təlimi dərslərində sosial və məişətdə bələdləşməsi qeyd edilən bu fənlərarası qarşılıqlı əlaqələrin qurulması ilə aşağıda qeyd edilən məsələlərin həlli uşaqların cəmiyyətdə sosiallaşması üçün həyati əhəmiyyət kəsb edir:

- idraki proseslərin fəallaşdırılması;
- təxəyyülün inkişafı;
- yeni biliklər əldə etmək üçün maraq və motivasiyanın olması;
- şifahi nitqin formalaşdırılması;
- lüğət ehtiyatının artırılması.

SİMU -ın ümumi inkişafda irəliləməsi, onun bilik və bacarıqlara yiyələnməsi üçün digər fənlərin tədrisi ilə yanaşı, həm də əmək təlimi prosesində nitqin inkişafı üzrə xüsusi təşkil olunmuş dərslər də aparılır. SİMU -da nitq fəaliyyətinin tənzimlənməsi və normallaşdırılması onların ümumi inkişafına böyük təkan verir və bununla da nitq vasitəsi ilə sosial və əmək adaptasiyası üçün real zəmin yaradır. SİM uşaq və yeniyetmələr üçün cəmiyyətdə sosial rahatlığa və bərabərliyə nail olmağa yönəldilir. Buna görə də, əmək təlimi prosesində SİM şagirdlərin şifahi nitqinin inkişafı böyük əhəmiyyət kəsb edir.

Əmək təlimi dərslərində uşaqlar görülən işlər haqqında tam cümlələrlə hesabat verməkdə, hazırladıqları məmulatın adını, xassə və xüsusiyyətlərini təsvir etməkdə çətinlik çəkir, onların nitqi daha çox bir sözdən ibarət cümlələrlə xarakterizə olunur.

Xüsusi məktəbdə SİMU-rın əmək fəaliyyətinin növləri elə seçilməlidir ki, əmək və ümumtəhsil dərslərində əldə edilmiş bilik, bacarıq və vərdişlər sinifdən kənar, məktəbdən xaric, evdə uşaqların asudə vaxtlarında da təkmilləşib möhkəmləndirilsin. Məsələn, ibtidai sinif şagirdləri əmək dərsləri zamanı modelləşdirmə ilə məşğul olurlarsa, dərsdənkənar məşğələlər zamanı kağız və ya təbii materiallarla işin təşkili faydalıdır. Xüsusi məktəblərdə sinifdənkənar iş fəaliyyətinin ən geniş yayılmış forması müxtəlif metal və taxta üzərində texniki modelləşdirmə, kəsmə və tikiş, toxuculuq və s. dərnəklərdir ki, bunlar adətən mövcud təlim emalatxanaları əsasında yaradılır. Bu dərnəklərdə müəyyən iş növünə maraq və meyl göstərən SİMU məşğul ola bilir. {1}

Əmək təlimi prosesində SİMU-da nitq inkişafının müvəffəqiyyəti əsasən uşağın marağından, müxtəlif obyektlər haqqında getdikcə daha çox yeni məlumat əldə etmək istəyindən asılıdır. Buna görə də, şagirdlərin ətraf mühitə marağını oyatmaq və onların təcrübələrini zənginləşdirməyə həvəsləndirmək çox vacibdir. Bu, öz növbəsində, uşaqlara suallar verməyi və cavablandırmağı öyrətmək üçün zəmin hazırlayır. Yəni müəllim hər bir dərsin mövzusuna aid nitq materialının seçilməsi, lüğətin zəruri söz və terminləri dəqiqləşdirilməsi və toplanması, əvvəllər öyrənilmiş nitq materialını təkrarlamaq və yenisi ilə birləşdirib şagirdlərə istifadə üçün təqdim edir. {2}

Yeni söz və terminlərin daha yaxşı mənimsənilməsi və yadda saxlanması üçün onları nəinki şifahi öyrənir, həm də eşitmə və görmə ilə qəbul etdiyi informasiyanı dəftərdə yazır. Müəllim tərəfindən şagirdlərin nitqinə və ya sualına kəskin cavabı və ya irad bildirməsi, növbəti dəfə uşağın nə haqda sual vermək və ya danışmaq istəyinin qarşısını almış olur. Onlar soruşmamağa və ya danışmamağa qərar verəcəkdir. Buna görə də, müəllim şagirdlərin verdiyi suallara diqqətli olub, bir sualını cavabsız qoymamalı, onlarla mehriban, sakit səslə danışaraq sadə cavablar verməlidir.

Əmək təlimi prosesində SİM uşaqların ünsiyyət ehtiyacları da təmin edilməlidir.

Əmək dərsləri şəraitində onlara həyata keçirdikləri müxtəlif fəaliyyət növlərinin artan mürəkkəbliyi əsasında fikir və təəssürat mübadiləsi üçün stimul yaratmaq vacibdir.

SİM şagirdlərin şifahi nitqinin inkişafı qazanılmış biliklərin şifahi yoxlanılması ilə də bağlıdır. Məktəbdə ən çox istifadə olunan üsul fərdi sorğudur. Şagirdlərin şifahi nitqinin inkişafı bili-

yin şifahi yoxlanılması ilə asanlaşdırılır. Məktəbdə ən çox istifadə olunan üsul fərdi sorğudur.

Ənənəyə görə, müəllim sorğunun aparılacağı mövzunun adını çəkir, sonra sinfə müraciət edir və sual verir, bundan sonra şagirdlərdən birini çağırır. Bu, hər kəsə öz fikirlərini toplamaq və qarşıdan gələn cavaba hazırlaşmaq şansı verir. Müəllim hər kəsi natamam cavabları tamamlamağa və səhvləri düzəltməyə cəlb edərsə, uşaqların sinifdə fəallığı artır. Əmək təlimi prosesində SİMU-da özünə nəzarətin təşkili xüsusilə vacibdir. Bu nəzarət şagirdlər müstəqil olaraq öz fəaliyyətlərini təşkil etməkdə və hazırladıqları məmulatlara qiymət verməsindən ibarətdir. Eyni zamanda, onlar sualların qurulmasının sürətinə və məntiqinə, cavabların düzgünlüyünə nəzarət edir. Sonra müəllimlə rollarını dəyişdirirlər. Bu üsul təfəkkürün inkişafına, tədris materialının mənimsənilməsi və bacarıqların möhkəmlənməsinə kömək edir. {4}

Çox təəssüf olsun ki, bəzən müəllim SİM şagirdlərin mücərrəd təfəkkürünün zəif inkişaf dərəcəsini əks etdirən natamam nitq anlayışlarına əhəmiyyət vermir və bunun nəticəsində nitq inkişafı üzrə korreksiya və tərbiyə işlərini qeyri-qənaətbəxş aparır.

Uşaqları ünsiyyət ehtiyacı şəraitində qoymaq, həyata keçirdikləri müxtəlif fəaliyyət növlərinin artan mürəkkəbliyi əsasında fikir və təəssürat mübadiləsi üçün stimul yaratmaq vacibdir.

Beləliklə də, əmək təlimi dərslərində nitq inkişafının müvəffəqiyyəti əsasən uşağın marağından, müxtəlif obyektlər haqqında getdikcə daha çox yeni məlumat əldə etmək istəyindən asılıdır. Buna görə də, onların ətraf mühitə marağını oyatmaq və SİMU -rın əməli və nitq təcrübələrini zənginləşdirməyə həvəsləndirmək çox vacibdir.

Məlumdur ki, SİMU-lar nitqi mənimsəməkdə və başqaları ilə ünsiyyət qurmaqda çətinlik çəkmələri yaradıcı təfəkkürün inkişafına mənfi təsir göstərir. {4}

**Problemin elmi yeniliyi.** Onlarda:

- şifahi nitqin zəif inkişafı materialı dərk etməyi, yeni anlayışları mənimsəməyi və yeni vəzifələri başa düşməyi çətinləşdirir;
- məntiqi təfəkkürün qeyri-kafi səviyyəsi ona gətirib çıxarır ki, SİM məktəblilər çox vaxt biliyi formal şəkildə mənimsəyir, qaydaları mexaniki şəkildə əzbərləyir, onların praktikada tətbiq etməkdə çətinlik çəkirlər;
- yeni anlayışların mənimsənilməsi prosesində onlar diqqətlərini konkret fikri cəmləşdirməyə və ümumiləşdirmələrə keçməkdə çətinlik çəkirlər.

**Problemin praktik əhəmiyyəti.** Qeyd edilən bu çətinlikləri aradan qaldırmaq üçün hər bir mövzu üzrə əvvəllər öyrənilmiş nitq materialı təkrarlanaraq yeni lüğətlə birləşdirilir və uşaqlara ilk dəfə istifadə olunan zəruri söz və terminlər təqdim edilir. Yeni söz və terminləri daha yaxşı mənimsəmək üçün nitq materialı nəinki şifahi öyrənilir, həm də dəftərə yazılır.

Beləliklə də, xüsusi məktəb şəraitdə əmək təliminin tədrisi prosesində yeni tədris texnologiyalarından istifadə təkcə şagird şəxsiyyətinin kommunikativ xüsusiyyətlərini deyil, həm də mövzu üzrə biliklərin zənginləşdirilməsinə kömək edir, uşağın yaradıcılıq qabiliyyətlərinin açılması və təzahürü üçün maksimum şərait yaradır. Bundan əlavə, müəllimin özünün səriştəsini artırır.

Xüsusi məktəbdə əmək dərslərində istifadə olunan **dərsliklər** də həm bir çox əhəmiyyətli məlumatların əldə edilməsi, lüğətin zənginləşdirilməsi, həm də bütövlükdə nitqin inkişafı üçün böyük əhəmiyyət daşıyır. Əmək təlimi üzrə dərsliklərdən istifadə məktəbdə əsas tədris metodlarından birinə çevrilir. Əmək təlimi prosesində SİMU-rın lüğətinin zənginləşdirilməsində dərsliklərdən istifadə bilik əldə etməklə yanaşı, həmçinin nitqin oxu və yazı tərəflərinin də inkişafına təkan verir.

**Ədəbiyyat:**


5. Асеев, В.Г. Мотивация поведения и формирования личности. / В.Г. Асеев.−М., 2000. −158 с.
6. Брунов, Б.П. Обучение детей с проблемами в интеллектуальном развитии. / Б.П. Брунов −Красноярск, 2003. −153 с.
7. Вакуленко Ю.А. Трудовое воспитание в начальной школе: тематические классные часы (беседы, посиделки, конкурсы, викторины, ярмарки) −Волгоград: Учитель, −2007. – 231с.
8. Васенков Г.В. Проблемы развития трудовых возможностей учащихся вспомогательных школ // Сб. Социальная защита детства. вып. 6.М. : ГОМЦ Школьная книга-2001. -224 с.


**E-mail:** loqoped55@mail.ru
**Redaksiyaya daxil olub:** 15.04.2024